Nümunəvi peşə standartı
Peşə standartı üzrə qiymətləndirmə nümunəsi
Müəssisələr üçün nümunəvi təlim standartı

# Taksi sürücüsü

İngilis dilində adı: Taxi Driver

**N: 8322-2-00199-01**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dünya Bankının birgə həyata keçirdiyi "Sosial Müdafiənin İnkişafı" layihəsinin "ISCO 88/08-ə uyğun təkmilləşdirilmiş peşə standartlarının və əlaqədar təlim standartlarının hazırlanması" tapşırığı çərçivəsində "GOPA Consultants" və "SEFT Consulting" tərəfindən hazırlanmışdır.

**Bakı**
**Noyabr, 2012-ci il**

# İSTİFADƏ OLUNAN ANLAYIŞLAR

| | |
|---|---|
| Bacarıq | Verilmiş iş üzrə vəzifə və fəaliyyətləri yerinə yetirmək qabiliyyətidir. |
| Bacarıq səviyyəsi | Həyata keçirilən fəaliyyətlərin əhatəliliyi və mürəkkəbliyi ilə müəyyən olunur, burada fəaliyyətlərin mürəkkəbliyi əhatə üzərində üstünlüyə malikdir. Hər bir bacarıq səviyyəsi üzrə müvafiq bilik səviyyəsi tələb olunur. ISCO-da, eləcə də Məşğulluq Təsnifatında aşağıdakı dörd geniş bacarıq səviyyəsi müəyyən edilir:<br>*Birinci bacarıq səviyyəsi*<br>Birinci bacarıq səviyyəsi üzrə peşələr sadə və dövri fiziki fəaliyyətlərin yerinə yetirilməsini zəruri edir. Bundan əlavə, birinci bacarıq səviyyəsində bir çox peşələr fiziki güc və dözümlülük tələb etdiyi halda, əksəriyyətində sadə yazıb-oxuma və rəqəmlərlə işləmə bacarığı tələb olunur. Bu bacarıqlara ehtiyac duyulduğu halda belə, onlar işin əsas hissəsini təşkil etmir.<br>Birinci bacarıq səviyyəsinə daxil olan bəzi peşələrdə səriştəli fəaliyyət üçün ibtidai təhsili və ya əsas təhsilin birinci mərhələsini başa vurmaq (ISCED üzrə 1-ci səviyyə) tələb oluna bilər. Bəzi işlər üçün isə iş yerlərində qısamüddətli təlimlər tələb oluna bilər.<br>Birinci bacarıq səviyyəsi üzrə təsnifatlaşdırılan peşələr ixtisası olmayan işçi qüvvəsini əhatə edir.<br>*İkinci bacarıq səviyyəsi*<br>İkinci bacarıq səviyyəsi üzrə bütün peşələrdə səriştəli fəaliyyət üçün tələb olunan bilik və bacarıqlar, adətən, ümumi orta təhsilin birinci mərhələsini başa vurmaqla (ISCED üzrə 2-ci səviyyə) əldə olunur. Bəzi peşələrdə ümumi orta təhsilin ikinci mərhələsini bitirmək zəruri hesab olunur (ISCED üzrə 3-cü səviyyə) ki, bura ixtisaslaşmış peşə təhsili və iş yerlərində həyata keçirilən təlim də daxil ola bilər. Müəyyən peşələr ümumi orta təhsili bitirdikdən sonra ilk peşə-ixtisas təhsili almağı (ISCED üzrə 4-cü səviyyə) tələb edir. Bəzi hallarda isə iş təcrübəsi və iş yerlərində həyata keçirilən təlim formal təhsili əvəz edə bilər.<br>İkinci bacarıq səviyyəsi üzrə təsnifatlaşdırılan peşələrə ixtisaslı işçilər daxildir.<br>*Üçüncü bacarıq səviyyəsi*<br>Üçüncü bacarıq səviyyəsindəki peşələr, adətən, ixtisaslaşmış sahə üzrə geniş praktiki, texniki və metodoloji biliklər tələb edən mürəkkəb texniki və praktiki fəaliyyətlərin yerinə yetirilməsini əhatə edir. Bu bacarıq səviyyəsi üzrə peşələr, ümumiyyətlə, yüksək səviyyədə yazıb-oxuma və rəqəmlərlə işləmə bacarığı, eləcə də inkişaf etmiş ünsiyyət bacarığı tələb edir.<br>Üçüncü bacarıq səviyyəsi üzrə tələb olunan bilik və bacarıqlar, adətən, ümumi orta təhsil bazasına əsaslanan təhsil müsəssisələrində 1-3 illik təhsil vasitəsi ilə əldə olunur (ISCED üzrə 5b səviyyəsi). Azərbaycanda bu bacarıq səviyyəsinə uyğun təhsil adətən orta ixtisas təhsili müəssisələrində (kolleclər) verilir. Bəzi hallarda müvafiq sahə üzrə geniş iş təcrübəsi və iş yerlərində həyata keçirilən uzunmüddətli təlim formal təhsili əvəz edə bilər.<br>Üçüncü bacarıq səviyyəsi üzrə təsnifatlaşdırılan peşələr əsasən texniki işçiləri əhatə edir. |

| | |
|---|---|
| | *Dördüncü bacarıq səviyyəsi*<br>Dördüncü bacarıq səviyyəsinə, adətən, ixtisaslaşmış sahə üzrə geniş nəzəri və praktiki biliklər əsasında mürəkkəb problemlərin həlli və qərarların qəbul edilməsini tələb edən fəaliyyətlərin yerinə yetirilməsi daxildir. Bu bacarıq səviyyəsi üzrə peşələr, ümumiyyətlə, yüksək səviyyədə yazıb-oxuma və rəqəmlərlə işləmə bacarığı, eləcə də təkmilləşmiş ünsiyyət bacarığı tələb edir.<br>Dördüncü bacarıq səviyyəsi üzrə tələb olunan bilik və bacarıqlar, adətən, ali təhsil müəssisələrində birinci və ya daha yüksək elmi dərəcənin verilməsi ilə yekunlaşan 3-6 illik təhsil vasitəsi ilə əldə olunur (ISCED üzrə 5a səviyyəsi və ya daha yüksək səviyyə). Bu bacarıq səvviyyəsi üçün Azərbaycanda adətən bakalavriat və daha yüksək təhsil pillələri uyğun gəlir.<br>Dördüncü bacarıq səviyyəsi üzrə təsnifatlaşdırılan peşələrə menecerlər, mühəndislər, müəllimlər, həkimlər və s. daxildir ki, bunlar çox vaxt peşəkarlar adlandırılır. |
| Bilik | Təhsil və ya təcrübə vasitəsilə əldə edilən məlumat və faktlar toplusunu əhatə edir. |
| Əlavə / ümumi səriştələr | Müvafiq əmək fəaliyyətini həyata keçirə bilmək üçün tələb olunan səriştələrə əlavə olaraq, arzuolunan faydalı səriştələri əhatə edir. Buraya əmək fəaliyyətini təkmilləşdirə bilən, bir çox peşələr üçün ümumi olan və gələcəkdə tələb olunacaq səriştələr daxildir. Bunlar işçilərin fəaliyyətinin qiymətləndirilməsi üçün əsas kimi çıxış etmir. |
| Əvvəlki təlimin tanınması | Harada və necə təhsil almasından asılı olmayaraq, qeydə alınmış ixtisaslar və vahid standartlar baxımından insanların əvvəlki təliminin tanınması prosesidir. İnsanlar təhsil müəssisəsində formal təlim keçmələrindən və ya qeyri-formal təlim əldə etmələrindən asılı olmayaraq, öyrənmə prosesini heç vaxt dayandırmırlar.<br>Əvvəlki təlimin qiymətləndirilməsi və tanınması prosesi aşağıdakı kimidir:<br>• Şəxsin nə bildiyi və nə bacardığının müəyyənləşdirilməsi;<br>• Şəxsin bilik və bacarıqlarının xüsusi standartlar, səriştələrin qiymətləndirilməsi üzrə əlaqəli meyarlar ilə müqayisə edilməsi;<br>• Bu standartlara münasibətdə təlimin qiymətləndirilməsi;<br>• Şəxsin formal, qeyri-formal və informal təlimlər vasitəsilə keçmişdə topladığı bacarıq, bilik və təcrübənin tanınması. |
| Fəaliyyət | Fərdin vəzifələrinin bir hissəsi olan iş və ya məsuliyyəti əks etdirir. Buna görə də vəzifə bir sıra fəaliyyətlərə bölünür. |
| Formal təlim | Azərbaycan Respublikasının təhsil və təlim müəssisələrində həyata keçirilir, dövlət təhsil sənədinin verilməsi ilə nəticələnir. Təhsil müəssisələrində formal təlimlər dövlət təhsil standartlarına uyğun olaraq aparılır. Əldə edilən səriştələr testlər vasitəsilə yoxlanır və dövlət təhsil sənədi verilir. |
| İnformal təlim | Özünütəlim yolu ilə bilik və bacarıqlara yiyələnmənin formasıdır. Təhsil və təlim müəssisələrindən kənarda həyata keçirilir və təbii olaraq gündəlik həyatımızda müşahidə olunur. Formal və qeyri-formal təlimdən fərqli olaraq, informal təlim çox vaxt qeyri-ixtiyari baş verir və beləliklə, hətta fərdlərin özləri də səriştələrinin artırılmasında onun rolunu hiss etməyə bilər (məsələn, kütləvi informasiya vasitələrindən, ictimaiyyət arasında gündəlik qarşılıqlı əlaqələrdən və ümumi münasibətlərdən məlumatın əldə edilməsi). |

O, təlimin həyata keçirilməsi sahəsində (xüsusilə) ixtisaslaşmamış hər hansı bir şəxs (yəni ailə üzvləri, digər əlaqəli şəxslər və s.) tərəfindən istiqamətləndirildiyi halda, məqsədli xarakter daşıya bilər. İnformal təlim ölkə səviyyəsində qəbul edilən diplom və sertifikatların verilməsi ilə nəticələnmir.

**İş**

Fərdin işəgötürən üçün və ya sərbəst məşğulluq şəraitində həyata keçirdiyi vəzifə və ya fəaliyyətlərin toplusudur (ISCO-08 -ə uyğun olaraq).

**İşə yanaşma**

Müəyyən ideya, obyekt, şəxs və ya vəziyyətə müsbət və ya mənfi münasibəti əks etdirir.

Yanaşma fərdin fəaliyyət seçimini, çətinlik, həvəsləndirmə və mükafatlara (hamısı birlikdə stimul adlanır) cavab reaksiyasını müəyyən edir. Bu baxımdan yanaşma iş üçün xeyli vacibdir.

Yanaşmanın 4 əsas komponenti var: (1) Emosional: hiss və həyəcan; (2) İdrak: məntiqlə həyata keçirilən inam və fikirlər; (3) İradi: fəaliyyət meylləri; (4) Qiymət: stimullara mənfi və ya müsbət münasibət.

**Qeyri-formal təlim**

Təhsil sistemi ilə paralel şəkildə aparılır və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmur. Qeyri-formal təlimlər iş yerlərində və ya formal təlim sistemlərinə yardım üçün yaradılmış təşkilat və ya mərkəzlərdə, dərnəklərdə, fərdi məşğələlərdə, vətəndaş cəmiyyəti təşkilatları və qruplarında həyata keçirilə bilər.

**Qiymətləndirmə metodu**

Səriştəni ölçmək üçün üsul və ya alətdir.

**Qiymətləndirmə paketi**

Fəaliyyət meyarı da daxil olmaqla fərdin səriştələrinin qiymətləndirilməli olduğu müxtəlif qiymətləndirmə metodlarıdır.

**Qiymətləndirmə sxemi**

Qiymətləndirmə standartlarının vəzifələrini və onların yerinə yetirilmə istiqamətlərini müəyyən edir.

Peşə standartları üzrə qiymətləndirmənin məqsədi fərdin müvafiq peşə standartını fəaliyyətlər, vəzifələr və ya tapşırıqlar üzrə həyata keçirə bilməsini müəyyən etməkdir. Sözügedən tapşırıqlar, peşə standartında müəyyən edilən texniki bacarıqları, planlaşdırma və problemləri həlletmə biliklərini, gözlənilməz vəziyyətlərdə hərəkət etmək bacarığını, digər şəxslər ilə işləmək bacarığını və ünsiyyət bacarıqlarını əhatə etməlidir.

Peşə standartları üzrə qiymətləndirmənin məqsədlərinə, digər məsələlərlə yanaşı, aşağıdakılar daxildir:

- İşəgötürmə;
- Karyera yüksəlişi;
- Bilik və bacarıqlarda olan boşluqların və təlim ehtiyaclarının müəyyən edilməsi;
- İşçi heyətinin qiymətləndirilməsi.

Qiymətləndirməni planlaşdıran zaman onun xarakterik cəhətlərinə xüsusi diqqət yetirmək lazımdır: qiymətləndirmə hansı interval çərçivəsində həyata keçirilməlidir, hansı hədəflər müəyyən edilməlidir, hansı qiymətləndirmə metodları daha məqsədəuyğundur. Qiymətləndirmə sxemi aşağıdakı qiymətləndirmə metodlarından 2 və ya 3-nü əhatə etməlidir: i) Əmək fəaliyyətinin müşahidə edilməsi; ii) İşin nəticəsinin qiymətləndirilməsi; iii) Simulyasiya; iv) Suallar (şifahi və ya yazılı); v) Layihə işi; vi) Portfel əsasında qiymətləndirmə; vii) Dinləmə qiymətləndirməsi; viii) Fərdi

araşdırmalar; ix) Müştəri qiymətləndirməsi (məsələn, müştəri sorğu formaları), ekspert və şəxsi qiymətləndirmə və s.

Peşə standartı və peşə standartı üzrə qiymətləndirmə arasındakı əlaqə aşağıdakı sxemdə göstərilmişdir.




**Məşğulluq təsnifatı (MT)**

Ölkədə əmək bazarının inkişafına, beynəlxalq təcrübədə qəbul edilmiş uçot və statistikaya uyğun olaraq ISCO-08 təsnifatından istifadə edilməklə, onun genişləndirilməsi əsasında 2010-cu ildə hazırlanmışdır. Onun strukturu ISCO-08 təsnifatının strukturu ilə eynidir. MT Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 20 Dekabr 2010-cu il 180 saylı qərarı ilə təsdiq edilmiş və AZT041-2010 nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır.

**Peşə**

Yüksək oxşarlıq dərəcəsinə malik əsas vəzifə və fəaliyyətlərdən ibarət olan işlərin məcmusudur. Şəxsin hər hansı bir peşə ilə bağlılığı onun hazırda tutduğu vəzifə, əlavə və ya əvvəlki işləri vasitəsi ilə müəyyən olunur.

**Peşə standartı**

Konkret peşə sahələrində işçilərin yerinə yetirdikləri əmək funksiyalarına qoyulan ümumi tələbləri sistemli şəkildə əks etdirən normativ sənəddir. O, müvafiq səriştələr çərçivəsində işçinin bilik, bacarıq və vərdişləri nəzərə alınmaqla, onun əmək funksiyalarını yerinə yetirməsinə imkan verəcək konkret vəzifə öhdəliklərinin və fəaliyyətlərin siyahısını özündə ehtiva edir. Peşə standartı işdəki rolu təyin etməyə, işçinin fəaliyyətini qiymətləndirməyə, eləcə də, təkmilləşmə, peşə yüksəlişi üçün yollar müəyyən etməyə və hazırlamağa kömək edə bilər.

Peşə standartları ISCO-ya və Məşğulluq təsnifatına uyğun olaraq təsnifatlaşdırılır.

**Peşə standartı üzrə qiymətləndirmə nümunəsi**

Qiymətləndirmə hər hansı bir sahədə səriştənin aşkar edilməsi məqsədilə fərdin fəaliyyətinin aydın şəkildə müəyyən edilmiş standartlar ilə müqayisədə ədalətli və dəqiq şəkildə ölçülməsinə imkan verən prosesdir. İş yerinin qiymətləndirilməsi prosesi iş yeri ilə bağlı gündəlik fəaliyyətin tərkib hissəsini təşkil edir. Qiymətləndirmə zamanı əldə edilən nəticələr fərdlərə öz işlərini necə yerinə yetirdiyini öyrənməyə imkan verir. Bu, biliklərin, bacarıqların, yanaşma və davranışın inkişaf etdirilməsində, beləliklə, səriştənin nümayiş etdirilməsində onlara yardım edir.

Peşə standartı üzrə qiymətləndirmə nümunəsi qiymətləndirmə sxemi, fəaliyyət meyarları, qiymətləndirməni həyata keçirmək üçün zəruri

| | |
|---|---|
| | qiymətləndirmə metodları və resurslarını əhatə edir. |
| Peşələrin Beynəlxalq Standart Təsnifatı (ISCO) | Beynəlxalq Əmək Təşkilatının (BƏT) məsul olduğu əsas beynəlxalq təsnifatlardan biri olmaqla, beynəlxalq iqtisadi və sosial təsnifat qrupuna daxildir.<br>ISCO iş prosesində qarşıya qoyulan vəzifə və fəaliyyətlərə müvafiq şəkildə müəyyən edilmiş qruplara uyğun olaraq işlərin təşkilində vasitə rolunu oynayır. Onun əsas vəzifələri aşağıdakıları təmin etməkdən ibarətdir:<br>• Peşələrə dair statistik və inzibati məlumatların beynəlxalq hesabatını, müqayisəsini və mübadiləsini həyata keçirmək üçün baza rolunu oynamaq;<br>• Peşələrin milli və regional təsnifatlarının hazırlanması üçün model rolunu oynamaq;<br>• Bilavasitə özlərinin milli təsnifatını hazırlamayan ölkələrdə tətbiq oluna biləcək sistem rolunu oynamaq.<br>O, statistik və müştəri yönümlü proqramlar üçün nəzərdə tutulmuşdur. Müştəri yönümlü proqramlara iş axtaranların iş yerlərinə yönəldilməsi, ölkələr arasında işçilərin qısa və uzunmüddətli miqrasiyasının idarə edilməsi, peşə təlimi proqramları və təlimatlarının hazırlanması daxildir.<br>ISCO-nun ilk versiyası 1957-ci ildə qəbul edilmiş, daha sonra isə ISCO-68, ISCO-88 və hazırkı ISCO-08 versiyaları hazırlanmışdır. |
| Səriştə | Müvafiq əmək fəaliyyətini həyata keçirə bilmək üçün lazımi səviyyədə bilik, bacarıq, yanaşma və davranışa malik olmaqdır.<br>İş kontekstində istifadə olunan "Səriştə" anlayışı iş yerində tətbiq olunan bacarıqları əks etdirir. Səriştə şəxs nəyi bilir (bilik), nəyi bacarır (bacarıq), nəyi etmək istəyir (yanaşma) və bunu necə edir (davranış) məhfumlarının birləşməsinin nəticəsidir. Beləliklə, səriştə işi yerinə yetirmək üçün lazım olan texniki peşə elementləri, ümumi şəxsi xüsusiyyətlər və istəklərin birləşməsidir.<br>Səriştələr həmçinin işçinin fəaliyyətinin qiymətləndirilməsi üçün baza rolunu oynayır. |
| Təhsilin Beynəlxalq Standart Təsnifatı (ISCED) | 1970-ci illərin əvvəllərində UNESCO tərəfindən həm ayrı-ayrı ölkələrdə, həm də beynəlxalq səviyyədə təhsilə dair statistik məlumatların əldə olunması, toplanması və təqdim olunmasına xidmət edən bir vasitə kimi hazırlanmışdır. ISCED 1975-ci ildə Cenevrədə keçirilən Təhsilə dair Beynəlxalq Konfransda qəbul edilmiş və daha sonra 1978-ci ildə Parisdə keçirilən UNESCO-nun Ümumi Konfransında qüvvəyə minmişdir. Hazırda istifadə edilən təsnifat ISCED 2011-dir. |
| Təlim standartı | İş yerində vəzifə və fəaliyyətlərin yerinə yetirilməsi üçün zəruri *səriştələri (bilik, bacarıq* və *yanaşmaları, həmçinin əlavə ümumi səriştələri)* təsvir edir. Bu səbəbdən, onlar fəaliyyət meyarları hesab edilir və aşağıdakı hallarda istifadə olunur:<br>• istehsaldan ayrılmadan peşə təlimlərinin hazırlanması;<br>• istifadəyə yararlı səriştələrin inkişaf etdirilməsi və təmin olunması üçün təlim institutları ilə müəssisələr arasında əlaqə;<br>• peşə təlimləri üçün təhsil standartları və kurikulumların hazırlanması. |
| Vəzifə | İşin icrası üçün zəruri olan fəaliyyətləri əhatə edir. |

# MÜNDƏRİCAT

**A. NÜMUNƏVİ PEŞƏ STANDARTI .......... 8**

**A.1. İşə dair xüsusi məlumat .......... 8**
A.1.1. Əmək şəraiti .......... 8
A.1.2. İşə qəbul tələbləri .......... 8
A.1.3. Tabeçilik .......... 9
A.1.4. Peşə standartları üçünməsuliyyət və müstəqilliksəviyyələri .......... 10
A.1.5. Karyera yüksəlişi və sərbəst məşğulluq imkanları .......... 10

**A.2. Əsas vəzifələrin (V) və vəzifələr daxilində fəaliyyətlərin (F) siyahısı .......... 11**

**A.3. Səriştələr haqqında .......... 12**

**A.4. Qiymətləndirmələr haqqında .......... 12**

**B. PEŞƏ STANDARTI ÜZRƏ QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ .......... 13**

**B.1. Fəaliyyət meyarları .......... 13**

**B.2. Qiymətləndirmə ilə bağlı resurslar .......... 14**

**B.3. Qiymətləndirmə metodları .......... 14**
B.3.1. Fəaliyyətin qiymətləndirilməsi .......... 14
B.3.2. Yazılı qiymətləndirmə .......... 16

**B.4. Nəticələrin qeydə alınması .......... 20**

**C. MÜƏSSİSƏLƏR ÜÇÜN NÜMUNƏVİ TƏLİM STANDARTI .......... 21**

**C.1. Səriştələrin qısa təsviri .......... 21**

**C.2. Təlim sxemi .......... 22**

**C.3. Təlim ilə bağlı xüsusi məlumat .......... 28**
C.3.1. Təlimin növləri .......... 28
C.3.2. Təlimin istiqaməti .......... 29

**Peşə standartının hazırlanması prosesində iştirak etmiş müəssisə nümayəndələrinin siyahısı .......... Error! Bookmark not defined.**

**ISCO88/08-ə uyğun təkmilləşdirilmiş peşə standartlarının və əlaqədar təlim standartlarının hazırlanması layihəsi tərəfindən prosesin əlaqələndirilməsində iştirak etmiş şəxslərin siyahısı .......... Error! Bookmark not defined.**

**İstinadlar .......... Error! Bookmark not defined.**

# A. NÜMUNƏVİ PEŞƏ STANDARTI

# Taksi sürücüsü

**Peşənin qısa təsviri**

Taksi sürücüsü müştərilər tərəfindən müəyyən edilmiş marşruta uyğun olaraq fərdi şəxsləri və ya qrupları və onların yüklərini təyin olunmuş yerə daşıyır. O, mərkəzi sifariş məntəqəsində, müvafiq taksi meydançalarında və ya yollarda müştərilərin sifarişlərinə əsasən fəaliyyət göstərir. Xidmət haqları yerində nağd pul, post-terminal, razılaşdırılmış müqavilələr və ya bank köçürmələri (hesabdan-hesaba) vasitəsilə ödənilir. Taksi sürücüsü fəaliyyət göstərdiyi ərazini yaxşı tanımalı və dayandığı yerdən gediləcək məntəqəyə qədər məsafə və zaman baxımından ən qısa marşrutu müəyyən etməyi bacarmalıdır. O, fəaliyyəti barədə qeydlər aparır, mümkün qədər rahat və təhlükəsiz daşıma xidməti göstərir. O, bəzi hallarda əlavə xüsusi xidmətlər göstərir, xüsusi kommunikasiya avadanlıqlardan, həmçinin xüsusi qüsurlu insanların daşınması üçün zəruri vasitələrdən istifadə edir, nəqliyyat vasitəsinin təmizliyini daima təmin edir və ona texniki xidmət göstərir.

| | |
|---|---|
| **Məşğulluq Təsnifatında (MT) peşənin kodu:** | 8322 (Sürücü, taksi) |
| **MT-də ixtisas (bacarıq) səviyyəsi:** | 2 |
| **ISCO 08-də işin kodu:** | 8322 (Driver, taxi) |
| **ISCO 08-də ixtisas (bacarıq) səviyyəsi:** | 2 |
| **Hazırlanma tarixi:** | Noyabr, 2012-ci il |
| **Təsdiq edən qurum:** | |
| **Təsdiq tarixi:** | |
| **Təklif olunan yenilənmə tarixi:** | Noyabr, 2017-ci il |

## A.1. İŞƏ DAİR XÜSUSİ MƏLUMAT

### A.1.1. ƏMƏK ŞƏRAİTİ

- Bütün hava şəraitlərində işləmək (Əmək məcəlləsində temperatura görə is qarfiki tənzimlənilir);
- İstənilən qrafik üzrə, o cümlədən tam ştatlı, yarım ştatlı əsasda, axsam növbəsində, gecələr, həftə sonları, mövsümlər üzrə və ya razılaşdırılmış müqavilələr əsasında işləyə bilər;
- Tələb olunan gigiyenik normalara cavab vermək, xüsusi geyimdə olmaq və xarici görünüşün səliqəli olmasına diqqət yetirmək;
- Sürücü içkili olmamalı, müştərinin rahatlığı üçün kabinədə əlavə səslər və ya siqaret tüstüsü olmamalıdır;
- Bəzi hallarda taksi sürücüsündən ev heyvanlarının daşınması tələb oluna bilinər. (sürücünün istəyi və tələbi nəzərə alınmaqla).;
- Əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydaları Azərbaycan Respublikasının Konstitusiyası, Əmək Məcəlləsi, Texniki təhlükəsizlik haqqında Qanun və digər müvafiq qanunvericilik aktları ilə müəyyən olunur.

### A.1.2. İŞƏ QƏBUL TƏLƏBLƏRİ

- Əmək münasibətləri Azərbaycan Respublikasının Konstitusiyasına, Əmək Məcəlləsinə və digər müvafiq normativ-hüquqi sənədlərə uyğun olaraq tənzimlənir;
- İşə qəbul olunarkən sağlamlıq haqqında tibbi arayış, sonradan vaxtaşırı icbari tibbi müayinədən keçmək haqqında tibbi arayış (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin müvafiq əmrləri ilə nəzərdə tutulduğu hallarda) təqdim olunur;
- Sürücülük kateqoriyasına uyğun sürücülük vəsiqəsi;
- Texnki vasitələrin, sərnişin və sürücülərin işə götürən şirkət tərəfindən və ya fərdi halda sığortalanması;
- Azərbaycan Respublikasının Konstitusiyasına, Əmək Məcəlləsinə, Texniki təhlükəsizlik haqqında qanuna və digər müvafiq normativ-hüquqi sənədlərə uyğun olaraq sağlamlıq və təhlükəsizlik qaydaları;
- Əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydaları ilə təlimatlandırmalar və fərdi mühafizə vasitələri ilə təminatməcburi xarakter daşıyır.

## A.1.3. TABEÇİLİK

| | |
|---|---|
| **Kimə tabedir:** | Tabeçilikdə işlədiyi zaman şirkət rəhbəri və ya müqavilə ilə razılaşdırılmış şəxs. |
| **Kim ona tabedir:** | Yoxdur. |

## A.1.4. PEŞƏ STANDARTLARI ÜÇÜN MƏSULİYYƏT VƏ MÜSTƏQİLLİK SƏVİYYƏLƏRİ

| Səviyyələr | Məsuliyyət, fəaliyyətlərin mürəkkəbliyi və müstəqillik | Uyğun gələn səviyyə |
|---|---|---|
| 1 | Planlaşdırılmış qaydada birbaşanəzarət altında işləmək<br>İş təkrarlanan xarakterə malikdir və mürəkkəb olmayan bir neçə funksiyanı əhatə edir. | |
| 2 | Nəzarət altında işləmək, kiçik səlahiyyətlərə malik olmaq<br>Təcrübə tələb edən fəaliyyətlərin yerinə yetirilməsivə əlaqələndirilməsi üçün məsuliyyət daşımaq<br>Öz fəaliyyətlərini planlaşdırmaq və nəticələri barədə hesabat vermək<br>Digər şəxslərlə əməkdaşlıq etmək və komandada işləmək | ☑ |
| 3 | Əvvəlcədən məlum olan vəzifə və fəaliyyətlər çərçivəsində müstəqil idarəetmə və komandanın idarə edilməsini həyata keçirmək (eyni zamanda həm idarəetmə, həm də istehsal subyekti kimi çıxış etmək)<br>İşə yanaşmasını dəyişən şəraitə uyğunlaşdırmaq və dövri problemlərin həlli zamanıelementar nəzəriyyələrdən istifadə etmək<br>Digər şəxslərin gündəlik işinə nəzarət etmək, əmək fəaliyyətinin qiymətləndirilməsi üçün məsuliyyət daşımaq və işin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək<br>İşçilərə rəhbərlik etmək<br>Mürəkkəb fəaliyyətləri əlaqələndirmək və yerinə yetirmək. Ümumi təcrübədən istifadə etməklə xüsusi yeni fəaliyyətlər müəyyən etmək | |
| 4 | Yeni və çox vaxt yaradıcı metodlar tələb edən məsələlərlə məşğul olmaq. Mürəkkəb məsələlərin həllində geniş təcrübədən istifadə etmək<br>Gözlənilməz dəyişiklik olduğu halda əmək fəaliyyətinə rəhbərlik və nəzarəti həyata keçirmək<br>Özü və başqaları üçün fəaliyyət meyarları hazırlamaq, onları nəzərdən keçirmək və təkmilləşdirmək<br>Gözlənilən və ya gözlənilməz iş rejimi şəraitində qərarların qəbul edilməsinə məsuliyyət daşımaq<br>Fərdlərin və qrupların peşəkar inkişafının idarə olunmasına məsuliyyət daşımaq<br>Fəaliyyətləri müşahidə etmək, qiymətləndirmək, müvafiq hesabatlar hazırlamaq və dəyişikliklər təklif etmək | |

## A.1.5. KARYERA YÜKSƏLİŞİ VƏ SƏRBƏST MƏŞĞULLUQ İMKANLARI

- Investisiya olduğu təqdirdə və xüsusi lisenziya əsasında sərbəst məşğulluq üçün imkanlar vardır.

## A.2. ƏSAS VƏZİFƏLƏRİN (V) VƏ VƏZİFƏLƏR DAXİLİNDƏ FƏALİYYƏTLƏRİN (F) SİYAHISI

V.1. Gündəlik iş fəaliyyətini planlaşdırmaq və təşkil etmək:
- F.1.1. İş yükünü qiymətləndirmək və prioritetləşdirmək;
- F.1.2. Daimi müştərilərin sifarişlərini, sifariş məntəqələrinin təkliflərini, müxtəlif taksi dayanacaqlarının seçimlərini, potensial müştərilərin axınını, konfranslar, idman və tədbirləri, konsertlər kimi xüsusi tədbirlərin tələblərini nəzərə alaraq gündəlik marşrutu planlaşdırmaq;
- F.1.3. Daşınmanın təhlükəsizliyini təmin etmək üçün nəqliyyat vasitəsinin göstərici, işıq və əyləc sistemlərini yoxlamaq;
- F.1.4. Pulların dəyişdirilməsini və qəbzləri yoxlamaq;
- F.1.5. Özünün və nəqliyyat vasitəsinin təmiz və gigiyenik görünüşünü təmin etmək.

V.2. Təlimatlar almaq:
- F.2.1. Yoldakı vəziyyət və xüsusi tədbirlər barədə məlumat mübadiləsi aparmaq məqsədilə müvafiq kommunikasiya avadanlığı vasitəsilə dispetçer və operator xidməti ilə əlaqə saxlamaq və sərnişin xidməti ilə bağlı göstərişlər almaq;
- F.2.2. Qrafikə və marşruta uyğun olaraq müntəzəm müştərilərin və ya qrupların götürülməsini təmin etmək.

V.3. Xidmət göstərmək:
- F.3.1. Əvvəlcədən razılaşdırılmış yerlərdə, taksi dayanacaqlarında və yolda hərəkət edən zaman yol hərəkəti qaydalarını pozmadan müştərilərigötürmək;
- F.3.2. Nəqliyyat vasitəsinə minən və düşən zaman sərnişinlərə yardım göstərmək və onların yükünə kömək etmək;
- F.3.3. Müştəri avtomobilə minən zaman taksometri işə salmaq və təyinat məntəqəsinə çatan zaman onu söndürmək;
- F.3.4. Yol hərəkəti və təhlükəsizlik texnikası qaydalarına əsasən təhlükəsiz, etibarlı, məsuliyyətli olmaq və yanacağa qənaətlcil yanaşmaq. Həmçinin, sürücülük qaydalarına uyğun olaraq nəqliyyat vasitəsini işə salmaq, idarə etmək, manevr etmək, yerləşdirmək və saxlamaq;
- F.3.5. Nəqliyyat vasitələrinin idarə edilməsi prosesini tənzimləyən müvafiq təhlükəsizlik qaydalarına riayət etmək və müştəriləri təhlükəsizlik qaydalarına əməl etmələri üçün təlimatlandırmaq;
- F.3.6. Xüsusi ehtiyacı olan müştəriləri daşımaq və onların təhlükəsizliyini təmin etmək üçün əlil arabaları üçün nəzərdə tutulmuş pandus və və s. bu kimi qurğu və avadanlıqlardan istifadə etmək;
- F.3.7. Tələbə uyğun olaraq müştəriyəyerli ərazi və maraqlı, görməli yerlər barədə məlumat vermək və ya digər mədəniyyət obyektləri, həmçinin otel və restoranlar barədə ümumi məsləhətlər vermək;
- F.3.8. Müştərininrahatlığını təmin etmək üçün qızdırma, soyutma, işıqlandırma və havalandırma sistemlərinin işini tənzimləmək;
- F.3.9. İctimai qaydalara uyğun olaraq ödənişin məbləğini müştəriyə açıqlamaq, gedilən məsafə və vaxta görə, taksometrin göstəriciləri əsasında nağd pul, post-terminal, razılaşdırılmış müqavilə və ya bank köçürmələri (hesabdan-hesaba) vasitəsi ilə ödənişləri almaq;
- F.3.10. Yol-hərəkəti qaydalarına və texniki tələblərə uyğun olaraq nəqliyyat vasitəsini dayandırmaq, söndürmək və saxlamaq.

V.4. Yol hərəkətini və küçələrin vəziyyətini monitorinq etmək:
- F.4.1. Nəqliyyatın hərəkət axınını, şəraitini, yolların vəziyyətini və ya gecikmələrə, marşrutun dəyişdirilməsinə səbəb ola bilən digər amilləri nəzərə almaqla ən effektiv marşrut qrafikini seçmək və sərnişinlə razılaşdrmaq;
- F.4.2. Nəqliyyat vasitəsinin təhlükəsiz istismarını, sərnişinlərin, avadanlıqların, yüklərin, mülkiyyətin təhlükəsizliyini təmin etmək üçün nəqliyyatın hərəkətini və yolları monitorinq etmək, buna uyğun hərəkət etmək.

V.5. Müştəri məmnunluğunu təmin etmək:
- F.5.1. Müştərinin istəyinə uyğun olaraq şifahi ünsiyyət qurmaq;
- F.5.2. Müvafiq qaydalara və texniki tələblərə uyğun olaraq xüsusi geyim normalarına və xarici görünüşə diqqət yetirməklə müsbət peşəkar və təşkilati imic formalaşdırmaq;
- F.5.3. Nəqliyyat vasitəsinin təmizliyini və yüksək gigiyenik şəraiti təmin etmək;
- F.5.4. Müxtəlif müştərilərin xüsusi ehtiyaclarını və gözləntilərini müəyyən etmək və qarşılamaq;
- F.5.5. Gözlənilən və gözlənilməz problemləri, gecikmələri müəyyən etmək, monitorinq etmək və müştərini dərhal məlumatlandırmaq;
- F.5.6. Etik davranış qaydalarına əməl etmək.

V.6. Fəaliyyəti monitorinq etmək:
- F.6.1. Nəqliyyat vasitəsini istismardan əvvəl yoxlamaqla taksi fəaliyyətini təmin etmək;
- F.6.2. Nəqliyyat vasitəsinin daxili hissəsini təmizləmək, xarici hissəsini yumaq və parıldatmaq;
- F.6.3. İstismar zamanı nəqliyyat vasitəsinin fəaliyyətinə və effektivliyinə nəzarət etmək;
- F.6.4. Texniki problem yarandığı halda müəssisənin mexanikini nəqliyyat vasitəsində yaranan problem barədə məlumatlandırmaq və ya nəqliyyat vasitəsini təmir emalatxanasına aparmaq.

V.7. Gündəlik fəaliyyət barədə qeydlər aparmaq və hesabat hazırlamaq:
- F.7.1. Yol vərəqəsində adı, tarixi və taksi-eyniləşdirmə nömrəsini, eləcə də sərnişinin götürülməsi, düşürülməsi və gediş haqqı kimi texniki məlumatları qeyd etmək;
- F.7.2. Müvafiq olduğu təqdirdə gözlənilməz hadisələr barədə hesabat hazırlamaq;
- F.7.3. Texniki prosedurlara uyğun olaraq qusurlar və ya nasazlıqlar barədə aidiyyəti şəxslərə məlumat vermək;
- F.7.4. Nəqliyyat vasitəsi ilə bağlı tapşırıq almaq üçün taksi xidməti və ya qaraj ilə mütəmadi əlaqə saxlamaq.

## A.3. SƏRİŞTƏLƏR HAQQINDA

Fərdin "Taksi sürücüsü" peşə standartı üzrə vəzifə və fəaliyyətləri həyata keçirməsi üçün zəruri olan əsas səriştələr "Taksi sürücüsü" peşəsi üzrə müvafiq təlim standartında göstərilmişdir (formal, qeyri-formal və informal təlimlər vasitəsilə əldə olunan bilik, bacarıq, yanaşma və davranış).

## A.4. QİYMƏTLƏNDİRMƏLƏR HAQQINDA

Bu peşədə fərdin fəaliyyətinin qiymətləndirilməsi prosesi "Taksi sürücüsü" peşəsi üzrə müvafiq peşə standartının qiymətləndirilməsində öz əksini tapır. Fərdin sistemli qiymətləndirilmələr vasitəsilə qiymətləndirilməsi işəgötürənə müxtəlif məqsədlər (yəni işəgötürmə, karyerada irəli çəkmə, heyətin qiymətləndirilməsi, təlim ehtiyaclarının qiymətləndirilməsi) baxımından faydalı ola bilər.

# B. PEŞƏ STANDARTI ÜZRƏ QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ

# Taksi sürücüsü

**Qiymətləndirməyə dair qısa məlumat**

Taksi sürücüsü üçün qiymətləndirmə nümunəsi müştərilər tərəfindən müəyyən edilmiş marşruta uyğun olaraq fərdi şəxslərin və ya qrupların və onların yüklərinin təyin olunmuş yerə daşınması, xidmət haqlarının yerində nağd pul, post-terminal, razılaşdırılmış müqavilələr və ya bank köçürmələri (hesabdan-hesaba) vasitəsilə ödənilməsini təşkil edilməsi üçün tələb olunan bilik və bacarıqları müəyyən edir və qiymətləndirir.

Hazırkı peşə üçün **tövsiyə edilən qiymətləndirmə metodları** aşağıdakılardır: (i) fəaliyyətin qiymətləndirilməsi və (ii) yazılı testlər. Sözügedən peşə üçün qiymətləndirmə proqramının nümunəsi aşağıda verilmişdir.

| | |
|---|---|
| **Məşğulluq Təsnifatında (MT) peşənin kodu:** | 8322 (Sürücü, taksi) |
| **MT-də ixtisas (bacarıq) səviyyəsi:** | 2 |
| **ISCO 08-də işin kodu:** | 8322 (Driver, taxi) |
| **ISCO 08-də ixtisas (bacarıq) səviyyəsi:** | 2 |
| **Test versiyası:** | 01 |
| **Hazırlanma tarixi:** | Noyabr, 2012-ci il |
| **Təsdiq edən qurum:** | |
| **Təsdiq tarixi:** | |

## B.1. FƏALİYYƏT MEYARLARI

Bu meyarlar peşə standartındakı vəzifə və fəaliyyətlərlə birbaşa əlaqəlidir. Onlar ölçülə bilən formada müəyyən edilməlidir ki, qiymətləndirmə nümunələri hazırlayanlar üçün qiymətləndirmə maddələrinin formalaşdırılması baxımından faydalı olsun. Birinci (V.1) və sonuncu (V.7) vəzifələrə uyğun gələn fəaliyyət meyarları ilə bağlı nümunə aşağıda göstərilmişdir.

**Fəaliyyət meyarı nümunəsi:**

V.1. Gündəlik iş fəaliyyətini planlaşdırmaq və təşkil etmək:
- F.1.1. İş yükünü qiymətləndirmək və prioritetləşdirmək;
- F.1.2. Daimi müştərilərin müştərilərini, sifariş məntəqələrinin təkliflərini, müxtəlif taksi dayanacaqlarının seçimlərini, potensial müştərilərin axınını, konfranslar, idman və tədbirləri, konsertlər kimi xüsusi tədbirlərin tələblərini nəzərə alaraq gündəlik marşrutu planlaşdırmaq;
- F.1.3. Daşınmanın təhlükəsizliyini təmin etmək üçün nəqliyyat vasitəsinin göstərici, işıq və əyləc sistemlərini yoxlamaq;
- F.1.4. Pulların dəyişdirilməsini və qəbzləri yoxlamaq;
- F.1.5. Özünün və nəqliyyat vasitəsinin təmiz və gigiyenik görünüşünü təmin etmək.

…

V.7. Gündəlik fəaliyyət barədə qeydlər aparmaq və hesabat hazırlamaq:

F.7.1. Yol vərəqəsində adı, tarixi və taksi-eyniləşdirmə nömrəsini, eləcə də sərnişinin götürülməsi, düşürülməsi və gediş haqqı kimi texniki məlumatları qeyd etmək;
F.7.2. Müvafiq olduğu təqdirdə gözlənilməz hadisələr barədə hesabat hazırlamaq;
F.7.3. Texniki prosedurlara uyğun olaraq qüsurlar və ya nasazlıqlar barədə aidiyyəti şəxslərə məlumat vermək;
F.7.4. Nəqliyyat vasitəsi ilə bağlı tapşırıq almaq üçün taksi xidməti və ya qaraj ilə mütəmadi əlaqə saxlamaq.

# B.2. QİYMƏTLƏNDİRMƏ İLƏ BAĞLI RESURSLAR

a) Material və komponentlər: vacib deyil.
b) Alət və avadanlıqlar: minik maşını.
c) İstehlak malları: vacib deyil.

# B.3. QİYMƏTLƏNDİRMƏ METODLARI

Fərdin səriştəsini qiymətləndirmək məqsədilə aşağıdakı iki metoddan istifadə olunur: (i) fəaliyyətin qiymətləndirilməsi və (ii) yazılı test.

## B.3.1. FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

**İcra müddəti:** 30 dəqiqə.
**İşlərin sayı:** 1.

İşlərin icrasını qiymətləndirmək üçün meyarlar işəgötürən tərəfindən müəyyən olunur.

**Əhatə olunan sahələr:**

20% Təlimatlar almaq

Yoldakı vəziyyət və xüsusi tədbirlər barədə məlumat mübadiləsi aparmaq məqsədilə müvafiq kommunikasiya avadanlığı vasitəsilə dispetçer və ya operator xidməti ilə əlaqə saxlamaq və sərnişin xidməti ilə bağlı göstərişlər almaq

Qrafikə və marşruta uyğun olaraq müntəzəm müştərilərin və qrupların götürülməsini təmin etmək;

30% Xidmət göstərmək

Əvvəlcədən razılaşdırılmış yerlərdə, taksi dayanacaqlarında və yolda hərəkət edən zaman yol hərəkəti qaydalarını pozmadan müştəriləri götürmək;

Nəqliyyat vasitəsinə minən və düşən zaman sərnişinlərə yardım göstərmək və onların yükünə kömək etmək;

Müştəri avtomobilə minən zaman taksometri işə salmaq və təyinat məntəqəsinə çatan zaman onu söndürmək;

Yol hərəkəti və təhlükəsizlik texnikası qaydalarına əsasən təhlükəsiz, etibarlı, məsuliyyətli olmaq və yanacağa qənaətcil yanaşmaq. Həmçinin, sürücülük qaydalarına uyğun olaraq nəqliyyat vasitəsini işə salmaq, idarə etmək, manevr etmək, yerləşdirmək və saxlamaq;

Nəqliyyat vasitələrinin idarə edilməsi prosesini tənzimləyən müvafiq təhlükəsizlik qaydalarına riayət etmək və müştəriləri təhlükəsizlik qaydalarına əməl etmələri üçün təlimatlandırmaq;

Xüsusi ehtiyacı olan müştəriləri daşımaq və onların təhlükəsizliyini təmin etmək üçün əlil

arabaları üçün nəzərdə tutulmuş pandus və və s. bu kimi qurğu və avadanlıqlardan istifadə etmək;

Tələbə uyğun olaraq müştəriyəyerli ərazi və maraqlı, görməli yerlər barədə məlumat vermək və ya digər mədəniyyət obyektləri, həmçinin otel və restoranlar barədə ümumi məsləhətlər vermək;

Müştərinin rahatlığını təmin etmək üçün qızdırma, soyutma, işıqlandırma və havalandırma sistemlərinin işini tənzimləmək;

İctimai qaydalara uyğun olaraq ödənişin məbləğini müştəriyə açıqlamaq, gedilən məsafə və vaxta görə, taksometrin göstəriciləri əsasında nağd pul, post-terminal, razılaşdırılmış müqavilə və ya bank köçürmələri (hesabdan-hesaba) vasitəsi ilə ödənişləri almaq;

Yol-hərəkəti qaydalarına və texniki tələblərə uyğun olaraq nəqliyyat vasitəsini dayandırmaq, söndürmək və saxlamaq.

20% Yol hərəkətini və küçələrin vəziyyətini monitorinq etmək

Nəqliyyatın hərəkət axınını, şəraitini, yolların vəziyyətini və ya gecikmələrə, marşrutun dəyişdirilməsinə səbəb ola bilən digər amilləri nəzərə almaqla ən effektiv marşrut qrafikini seçmək və sərnişinlə razılaşdrmaq;

Nəqliyyat vasitəsinin təhlükəsiz istismarını, sərnişinlərin, avadanlıqların, yüklərin, mülkiyyətin təhlükəsizliyini təmin etmək üçün nəqliyyatın hərəkətini və yolları monitorinq etmək, buna uyğun hərəkət etmək.

30% Müştəri məmnunluğunu təmin etmək

Müştərinin istəyinə uyğun olaraq şifahi ünsiyyət qurmaq;

Müvafiq qaydalara və texniki tələblərə uyğun olaraq xüsusi geyim normalarına və xarici görünüşə diqqət yetirməklə müsbət peşəkar və təşkilati imic formalaşdırmaq;

Nəqliyyat vasitəsinin təmizliyini və yüksək gigiyenik şəraiti təmin etmək;

Müxtəlif müştərilərin xüsusi ehtiyaclarını və gözləntilərini müəyyən etmək və qarşılamaq;

Gözlənilən və gözlənilməz problemləri, gecikmələri müəyyən etmək, monitorinq etmək və müştərini dərhal məlumatlandırmaq;

Etik davranış qaydalarına əməl etmək.

**İş nümunəsi 1:** Təcrübi yolda idarəetmə.

**Maksimum müddət:** 30 dəqiqə.

**İştirakçının görəcəyi işlər:** Təcrübi yolda idarəetmə zamanı imtahan götürən şəxs sizin aşağıdakıları necə yerinə yetirəcəyinizə nəzarət edəcək:

- nəqliyyat vasitələrinə nəzarət etmək
- döngələrdə, yoxuş və enişlərdə yolu dəyişmək
- əyləc sınağından keçmək
- güzgülərdən istifadə
- müvafiq siqnallar vermək
- digər yol istifadəçilərinin məqsədlərindən xəbərdar olmaq və onlara nəzarət etmək
- nəqliyyat vasitəsini idarə etmək
- təhlükələrlə üzləşmək
- dayanmaq üçün təhlükəsiz yer seçmək.

Son olaraq isə 10 dəqiqə ərzində avtomobildən sərbəst şəkildə idarə edəcəksiniz və bununla da sizin təhlükəsiz idarə etmə bacarığınız qiymətləndiriləcəkdir.

## B.3.2. YAZILI QİYMƏTLƏNDİRMƏ

**İcra müddəti:** 19 dəqiqə.
**Sualların sayı:** 19.

Yazılı qiymətləndirməni keçmək üçün tələb olunan düzgün cavabların sayı işəgötürən tərəfindən müəyyən olunur.
Tövsiyə olunan nisbət: 70%.

**Əhatə olunan vəzifələr:**

20% Təlimatlar almaq
30% Xidmət göstərmək
20% Yol hərəkətini və küçələrin vəziyyətini monitorinq etmək
30% Müştəri məmnunluğunu təmin etmək

**Sual nümunələri:**

1.Taksi sayğacı hansıqurumun ilə razılaşdırıldıqdan sonra təchiz olunur?

A.Taksinin sahibi

B.Nəqliyyat Nazirliyi

C.Polis

D.Səhiyyə Nazirliyi

2.Taksi sayğacının quraşdırılması üçün aşağıdakıların hansı yerinə yetirilməlidir?

(1) Maşında mexaniki qəzalar olduqda təmirin asanlaşdırılması məqsədilə sayğac möhürlənməməlidir.

(2) Gediş haqqı siferblatı işıqlandırıcı cihazla təchiz olunmalıdır.

(3) Təyin olunduğu kimi, ən aşağı gediş haqqının getdikcə artmasında əlavə gediş haqqının məbləği gediş haqqı siferblatında göstərilir.

A.(1),(2)

B.(1),(3)

C.(2),(3)

D.(1),(2),(3)

3.Nəqliyyatvasitənizi tərk etməzdən əvvəl, siz aşağıdakıları yerinə yetirməlisiniz:

A.Mühərriki söndürməlisiniz.

B.Əl əyləcinin möhkəm olduğundan əmin olmalısınız.

C.A və B.

4.Yanacaq növü aşağıdakılardan hansı olduqda,su yanğını söndürməyin ən yaxşı yolu hesab olunur?

A.Benzin.

B.Yağ.

C.Kimyəvi maddələr.

D.Yuxarıdakıların heç biri.

5.Üç məqam sizin hansı tezlikdə tam dayana bilməyinizə gətirib çıxarır; bunlar aşağıdakılardan ibarətdir:

A. Təhlükəni görmək, cavab müddəti, reaksiya müddəti.

B. Təhlükəni görmək, reaksiya müddəti, tormoz yolu.

C. Müşahidə müddəti, reaksiya müddəti, sürətin azaldılması müddəti.

D. Yolun vəziyyəti, sürət, reaksiya müddəti.

6.Əgər siz gecə vaxtı yolun kənarında maşını park etsəniz, aşağıdakılardan hansını etməlisiniz?

A. Bütün gecə boyunca dönmə siqnallarını verməyə davam etmək.

B.Maşını dayandırdıqda 10 dəqiqə ərzində xəbərdaredici konusları və ya üçbucaqları açıq saxlamaq.

C.Qəza işıq siqnallarını qoşmaq.

D.Qabarit işıqları və ya dayanacaq işıqlarını yandırmaq.

7.Gecə vaxtı maşın sürərkən, siz aşağıdakıları etməlisiniz:

A. Yaxşı dincəldiyinizdən əmin olmaq.

B.Çoxlu qəhvə içmək.

C.Sürəti azaltmaq.

D. Həmişə maşını faranın uzaq işıqları ilə sürmək.

8.Turist sizdən "Siz Azərbaycanda taksi sürücülərinə bəxşiş verirsiniz?" deyə soruşsa, cavabınız nə olardı?

A."Bəxşiş burada tələb olunmur, lakin xidmət yaxşı olarsa, bu hər zaman yüksək qiymətləndirilir".

B."Bəli, bəxşişin standart norması sayğacda sadalanandan 10% yuxarıdır."

C."Bəxşiş Azərbaycanda qanunvericiliyəziddir, siz bunu etməməlisiniz."

D."Bəli, hətta əgər xidmət yaxşı deyildirsə, taksi sürücülərinə təxminən 5 AZN bəxşiş ödənilməlidir."

9."Taksi sürücüsü ona icazə verilən miqdardan artıq pul tələb etməməlidir." Bu nə deməkdir?

A.Siz sayğacda göstəriləndən artıq miqdar tələb etməməlisiniz (üstəgəl rüsum).

B.Siz məsafəyə görə uyğun bildiyiniz qədər pul tələb etməlisiniz.

C.Siz ən azı ölçülmüş gediş haqqından 10% artıq miqdar tələb etməlisiniz.

D.Siz sayğacda göstərilən miqdardan əlavə xidmət haqqı tələb etməlisiniz.

10.Taksi sürücüləri taksini ehtiyatlı və təhlükəsiz şəkildə idarə etməlidir, dedikdə nə nəzərdə tutulur?

A.Əsasən yol hərəkət qaydalarına riayət etmək.

B.Sərnişin maşını sürətlə idarə etdiyiniz barədə sizə şikayət edərsə, sürəti azaltmaq.

C.Hər zaman yol hərəkəti qaydalarına riayət etmək..

D.Hər zaman diqqətli və ayıq olmaq və polisin işarələrinə diqqət etmək.

11.Bunlardan hansı taksi sürücüsü üçün qəbul olunan davranış sayılır?

A.Gediş zamanı sərnişinlərlə söhbət etmək.

B.Söhbət zamanı söyüşlə danışmaq.

C.Digər sürücüləri təhqir etmək.

D.Maşını yavaş sürən sürücülərə qışqırmaq.

12.Aşağıdakılardan hansı doğru fikirdir?

A.Taksi sürücüsü məsafə qısa olduğu halda xidmət göstərməkdən imtina edə bilər.

B.Taksi sürücüsünə istənilən işdən imtina etməyə icazə verilir.

C.Taksi sürücüsü getdiyi yerə tez çatmaq üçün ən qısa marşrutu seçə bilər.

D.Taksi sürücüsü şəhər ərazisi içərisində qısa məsafəyə getməkdən imtina edə bilər.

13.Fövqəladə hal zamanı idarəetməyə aşağıdakılar aiddir:

A.Sükanı düz saxlamaq

B. Sükanı yavaşca döndərmək

C. Üç hərəkət: sükanı düz saxla, əks istiqamətdə çevir və sükanı düzəltmək

D. Təkərləri düzəltmək

14.Əgər siqnal və əyləc işıqlarınız yanmırsa:

A.Maşını dayandırın və mühərriki söndürün.

B.Dönməyin və ya dayamayın

C.Əl siqnallarından istifadə edin

D.Maşını avtomat ötürücülərlə idarə edin

15.Təhlükəsizlik yastıqları:

A.Oturacaq kəmərlərini əvəz etmir

B.Yüksək sürət toqquşmaları zamanı effektiv sayılır

C.Travmanın ciddiliyini azaldır

D.Yuxarıdakıların hamısı

16.Avtomagistralda maşın sürərkən sol hərəkət xətti ən çox aşağıdakı məqsədlər üçün istifadə olunur:

A.Daha yavaş nəqliyyat hərəkəti

B.Yolda hərəkət sıx olduqda daha sürətli gedən nəqliyyat vasitələrini ötmək

C.Məktəb avtobusları

D.Motosikletlər

17.İki tərəfli küçədə yolun kənarında avtomobili üzüyuxarı park etdikdə həmişə ön təkəri aşağıdakı istiqamətə döndərin:

A.Sağ

B.Sol

C.Ön

D.İstənilən yol

18.Nəqliyyat vasitəsini düzgün idarə etmək və yanacağa qənaət etmək üçün:

A. Sürəti tez artırın

B.Qaz pedalını tədricən basın və nəqliyyat vasitəsinin sürətinin artmasını gözləyin

C. Ötürmə qutusunun aşağısürəti ilə maşını idarə edin

D.Qaz pedalını tədricən basın və həmin vəziyyətdə saxlayın

19.Kruiz kontrol heç vaxt aşağıdakı hallarda istifadə olunmamalıdır:

A.Sürüşkən yollarda

B.Sürətin yüksək dəyişkənliyə malik olduğu və ya sizin görmənizin məhdudlaşdığı yerdə

C.Şəhərdaxili  ərazilərdə

D.Yuxarıdakıların hamısı

## B.4. NƏTİCƏLƏRİN QEYDƏ ALINMASI

Hər bir iştirakçı üçün fərdi hesabatlar hazırlanmalı və fəaliyyətin qiymətləndirilməsi, eləcə də yazılı qiymətləndirmə üzrə toplanan balların hesabatı onlara təqdim edilməlidir. Qiymətləndirmə bir nəfər üçün bir dəfədən artıq istifadə edildiyi təqdirdə hesabatda qiymətləndirmədən əvvəlki və sonrakı ballar arasındakı faiz dəyişikliyi də əks olunmalıdır.

“Peşə standartları üzrə qiymətləndirmənin hazırlanması prosedurları” adlı sənəddə qiymətləndirmə üzrə geniş nəzəri və praktiki məlumatlar verilmişdir.

# C. MÜƏSSİSƏLƏR ÜÇÜN NÜMUNƏVİ TƏLİM STANDARTI

# Taksi sürücüsü

**Təlim standartına dair qısa məlumat**

Hazırkı təlim standartı müəssisələr, təlim mərkəzləri və institutları, təlim iştirakçıları üçün hazırlanmışdır və taksi sürücüsü üçün tələb olunan səriştələri əks etdirir. İşlə bağlı səriştənin nümayiş etdirilməsi üçün tələb olunan bilik və bacarıqların əldə edilməsinə xidmət edən təlim proqramları, kurikulumlar və təlim materiallarının hazırlanmasında bu standartdan təlimat kimi istifadə etmək olar. Bu standart əsasında hazırlanmış təlim digər peşələr üzrə səriştələrə malik olan, mövcud səriştələrini inkişaf etdirmək, mövcud iş yerində digər vəzifələri icra edə bilmək, yaxud digər müəssisədə və ya digər peşə üzrə iş tapmaq üçün yeni ümumi səriştələr əldə etmək istəyən şəxslər üçün də uyğun ola bilər.

| | |
|---|---|
| **Məşğulluq Təsnifatında (MT) (bu təlimin müvafiq olduğu) peşənin kodu:** | 8322 (Sürücü, taksi) |
| **MT-də ixtisas (bacarıq) səviyyəsi:** | 2 |
| **ISCO 08-də işin kodu:** | 8322 (Driver, taxi) |
| **ISCO 08-də ixtisas (bacarıq) səviyyəsi:** | 2 |
| **Milli İxtisas Çərçivəsi ilə əlaqə:** | |
| **ISCED-də kodu:** | |
| **Hazırlanma tarixi:** | Noyabr, 2012-ci il |
| **Təsdiq edən qurum:** | |
| **Təsdiq tarixi:** | |
| **Təklif olunan yenilənmə tarixi:** | Noyabr, 2017-ci il |

## C.1. SƏRİŞTƏLƏRİN QISA TƏSVİRİ

| | |
|---|---|
| Bilik: | • Yol hərəkəti qaydaları, müvafiq dövlətin və inzibati ərazi vahidinin icazələr barədə tələbləri və onlara dair yeniliklərin əldə olunması<br>• Taksinin ilkin texniki və mexaniki yoxlanması üçün əsas texniki biliklər<br>• Yanacaqdan effektiv istifadə və təhlükəsiz sürücülük strategiyaları<br>• Sürücülük ilə bağlı texniki tələblər və praktik təlimatlar<br>• İstismardan əvvəl taksiyə baxış tədbirləri və müvafiq əməliyyatlar<br>• Xəritə oxuma və naviqasiya sistemi<br>• Nəqliyyatın hərəkətində gecikmələrə və marşrutların dəyişdirilməsinə səbəb ola bilən amillər və sürücü tərəfindən həyata keçirilə bilən tədbirlər<br>• Sürücülük ilə bağlı təhlükələr və müvafiq mühafizə xarakterli tədbirlər<br>• Şəhər və rayon barədə ümumi biliklər: küçələr və onların adları, əsas görməli yerlər, təsisatlar, mədəniyyət obyektləri və digər müəssisələr<br>• İlkin tibbi yardım<br>• Post terminallardan istifadə qaydaları |

| | |
|---|---|
| Bacarıq: | • Öz vaxtını idarə etmək və planlaşdırmaq<br>• Müştəri ilə ünsiyyət bacarığı<br>• Taksi sürən zaman gözlənilməz hadisələr və ya təhlükəsizlik tədbirləri ilə bağlı ehtiyat planı həyata keçirmək<br>• Mövcud olan potensial təhlükələri imkan dairəsində azaltmaq, onlara nəzarət etmək və ya aradan qaldırmaq məqsədilə müvafiq ehtiyat tədbirləri görmək və tələb olunan fəaliyyət planını icra etmək<br>• Taksini təmizləmək və texniki xidmət göstərmək<br>• Hesablama bacarığı |
| Yanaşma: | • Nəzakətli, məsuliyyətli, etibarlı və dəqiq olmaq<br>• Ünsiyyət qurmaq, əməkdaşlıq etmək və səmimi olmaq<br>• İş yerində digər şəxslər ilə nəzakətli davranmaq, yardım etmək və mehriban münasibət göstərmək<br>• Səbirli olmaqvə ən çətin vəziyyətlərdə belə aqressiv davranışa yol verməmək |
| Əlavə / ümumi səriştələr: | • Xarici dil bilikləri<br>• İT (İnformasiya texnologiyaları)<br>• Yerli ərazinin tarixi və mədəniyyəti barədə biliklər |

## C.2. TƏLİM SXEMİ

**Müvafiq təlimi uğurla başa vuran "Taksi sürücüsü" aşağıdakıları bacaracaqdır / biləcəkdir:**

**Bölmə 1:** Öz vaxtını idarə etmək və planlaşdırmaq.

*Öyrənmə nəticələri:*

Nəticə 1 — Əvvəlcədən edilmiş ödənişlər üzrə qrafikin hazırlanması prosesini təsvir etmək və marşrutun təfərrüatları, olduğu yerlər barədə nəzarətçi dispetçerə məlumat vermək;

Nəticə 2 — Optimal iş sxemini planlaşdırmaq məqsədilə istifadə edilən informasiya mənbələrini sadalamaq, o cümlədən:

- Günün saatını və həftənin günlərini nəzərə almaq;
- Əsas olaraq, əyləncə, idman obyektləri və onların proqramları barədə məlumat;
- Əsas olaraq, otel və biznes məkanları, konfrans, digər tədbirlər barədə məlumatların haradan əldə edilməsi;
- Müştərinin tələbatını öyrənmək üçün istifadə edilən digər əlaqələr.

Nəticə 3 — İş fəaliyyətinə başlamazdan əvvəl nəqliyyat vasitəsində həyata keçirilməli olan yoxlamalar, o cümlədən:

- Ön işıqların, yan işıqların, indikatorların və əyləc lampalarının işlək vəziyyətdə olmasını yoxlamaq;
- Yağ, yanacaq, qabaq şüşə təmizləyən qurğuların növbə boyunca istismar üçün qənaətbəxş səviyyədə olmasını yoxlamaq;

- Təhlükəsizlik kəmərlərinin və qapı kilidlərinin saz vəziyyətdə olmasını yoxlamaq;
- Nəqliyyat vasitəsinin, o cümlədən yük yerinin təmiz olmasını yoxlamaq;
- Digər avadanlıqların saz vəziyyətdə olmasını yoxlamaq.

**Bölmə 2:** Müştərilər ilə effektiv ünsiyyət yaratmaq.

*Öyrənmə nəticələri:*

Nəticə 1 — Peşəkar və nəzakətli xidmət göstərməyin əhəmiyyətini izah etmək, o cümlədən aşağıdakıları nəzərə almaq:

- Müştərilər üçün mövcud olan seçimlər;
- Xarici görünüşün müsbət təəssüratın yaradılmasına necə təsir etməsi;
- Həm xarici, həm daxili təmiz olan nəqliyyat vasitəsini təqdim etmək;
- Səmimi, nəzakətli və gülərüzlü olmaq;
- Soruşulduğu təqdirdə peşəkar məlumat vermək;
- Müştəriləri razılaşdırılmış vaxtda götürmək;
- Səfərin təhlükəsiz və rahat olmasını təmin etmək; nəqliyyat vasitəsini lazımi diqqət və ehtiyat ilə idarə etmək, nəqliyyat vasitəsinin daxilində istiliyi, işıq və səs mühitini müştərinin rahatlığına uyğun olaraq tənzimləmək.

Nəticə 2 — Keyfiyyətli müştəri xidmətini təsvir etmək, o cümlədən:

- Təmin edilən xidmətlər, vasitələr və bunların müştərilərə necə çatdırılması;
- Hava limanlarından və digər əhəmiyyətli nəqliyyat terminallarından götürülən müştərilərə təklif edilə bilən təlimatlar;
- Bütün müştərilərə cinsindən, milliyyətindən və ya dini etiqadından asılı olmayaraq, bərabər münasibətin göstərilməsinin əhəmiyyəti;

Nəticə 3 — Aşağıdakıların müştərilərə necə çatdırılmasını nümayiş etdirmək:

- Gediş haqqı barədə ilkin / dəqiq hesablamalar;
- Təyinat yerinə təxmini çatma vaxtı;
- Müştərinin fəaliyyəti ilə bağlı tələb olunan digər informasiya.

**Bölmə 3:** Riskləri minimum səviyyəyə endirmək məqsədi ilə nəqliyyat vasitəsini idarə edən zaman ehtiyat tədbirləri görmək.

*Öyrənmə nəticələri:*

Nəticə 1 — Nəqliyyat vasitəsinin və sürücünün sərnişini təhlükəsiz şəkildə daşımaq üçün hazır olduğunu nümayiş etdirmək, o cümlədən aşağıdakıları təqdim etmək:

- Mövcud və qüvvədə olan sürücülük vəsiqəsi;
- Nəqliyyat vasitəsinin müvafiq icra hakimiyyəti orqanından, qeydiyyatdan keçdiyini təsdiq edən sənəd;
- Təklif edilən xidmətin bütün aspektlərini əhatə edən sığorta;

- Nəqliyyat vasitəsinin istismara yararlı olduğunu göstərən rəsmi mənbədən verilən sənəd.

| | |
|---|---|
| Nəticə 2 | Sərnişinlərin təhlükəsiz şəkildə təyinat məntəqəsinə necə çatdırılmalı olduğunu nümayiş etdirmək, o cümlədən:<br>• Müştərinin və ya sifarişçi ofisin təlimatları əsasında iqtisadi baxımdan ən səmərəli marşrutu şərh etmək;<br>• Baqajı lazımı qaydada təhlükəsiz şəkildə saxlamaq, yola düşməzdən əvvəl onların rahat şəkildə yerləşdirildiyini və təhlükəsizlik kəmərləri ilə bərkidildiyini təmin etmək;<br>• Nəqliyyat vasitəsinin sərnişinlərinin və digər yol hərəkəti iştirakçılarının təhlükəsizliyini təmin edərək idarə etmək, sürücülük üslubunu müştərinin xüsusi tələblərinə uyğunlaşdırmaq;<br>• Nəqliyyat vasitəsini yanacağa qənaət etməklə, eləcə də şin və əyləc sisteminin daha uzun xidmət müddətini təmin etməklə idarə etmək. |
| Nəticə 3 | Xüsusi ehtiyacı olan müştərilərin, eləcə də əlil arabasında olan şəxslərin daşınması prosedurunu təsvir etmək, o cümlədən:<br>• Əlavə yardıma ehtiyac duyan müştəriləri necə tanımaq və müvafiq yardımın operativ, nəzakətli şəkildə göstərilməsini izah etmək;<br>• Əlil arabası ilə hərəkət edən müştərilərə, onların səfərləri zamanı daha münasib nəqliyyat vasitələrinə dair məsləhət vermək;<br>• Müştərilərə onların əlil arabasından təhlükəsiz şəkildə nəqliyyat vasitəsinə minmə və ya düşmə prosesini izah etmək;<br>• Sərnişinləri və onların əlil arabalarını nəqliyyat vasitəsinə mindirməyin düzgün yolunu seçmək və istifadə etmək. |
| Nəticə 4 | Lazım olduğu təqdirdə radio və GPS sistemlərindən effektiv, təhlükəsiz şəkildə necə istifadə edildiyini nümayiş etdirmək, yaxud nəqliyyat vasitəsini idarə edən zaman rabitə vasitələrindən istifadə etməməyin əhəmiyyətini izah etmək; |
| Nəticə 5 | Növbənin sonunda nəqliyyat vasitəsinin necə təhvil verildiyini və bütün zəruri sənədləşdirmə işlərinin necə yerinə yetirilməli olduğunu nümayiş etdirmək, o cümlədən:<br>• Səfər barədə məlumatları əks etdirən yol vərəqələri, o cümlədən nəqliyyat vasitəsinin eyniləşdirmə nömrəsi;<br>• Gözlənilməz hadisələr barədə hesabat (lazım olduğu təqdirdə);<br>• Nasaz və ya yanlış fəaliyyət zamanı mütəxəssis mexanikin müdaxiləsini tələb edən digər qüsurlar. |

**Bölmə 4:** Təhlükəli vəziyyətlər və ya fövqəladə hallar kimi gözlənilməz hadisələr zamanı lazımi tədbirlər görmək.

*Öyrənmə nəticələri:*

| | |
|---|---|
| Nəticə 1 | Gözlənilməz vəziyyətlərə hazırlıq planlarının mövcud olduğu hadisə və fövqəladə halların növlərini sadalamaq, sözügedən planların necə həyata keçirilməli olduğunu təsvir etmək; |
| Nəticə 2 | Sürücünün ilk yardım göstərmək üçün müvafiq biliklərə malik olmalı olduğu qəza növlərini sadalamaq və ya xəstə, zədələnmiş sərnişinlərin mümkün qədər tez bir zamanda tibbi yardım üçün müvafiq yerlərə |

çatdırılması yollarını izah etmək.

**Bölmə 5:** Nəqliyyat vasitələrini təmizləmək və texniki xidmət göstərmək.

*Öyrənmə nəticələri:*

Nəticə 1 — Nəqliyyat vasitələrini sərnişinlərin daşınması üçün hazır vəziyyətə gətirilməsi məqsədilə necə təmizləndiyini nümayiş etdirmək, o cümlədən aşağıdakıları təmin etmək;

- Nəqliyyat vasitəsinin ön, arxa və baqaj hissəsində olan çirk və tozu aparmaq üçün daxili hissəni cilalamaq, tozsoran ilə təmizləmək;
- Nəqliyyat vasitəsinin şüşələrinin təmiz olmasını təmin etmək, ləkə və ya tozun şüşələrin görüntüsünə mane olmasının qarşısını almaq;
- Nəqliyyat vasitəsinin xarici hissəsinin təmiz olmasını təmin etmək və pardaqlamaq.

Nəticə 2 — Nəqliyyat vasitəsinin üzərində cari texniki xidmət işlərinin necə görülməli olduğunu nümayiş etdirmək, o cümlədən:

- Yanacaq səviyyəsi;
- Yağın ölçülməsi və lazım olduğu təqdirdə müvafiq səviyyəyə qədər yağın əlavə edilməsi;
- Şinlərdə havanın təzyiqinin istehsalçının tövsiyələrinə uyğun olmasının təmin edilməsi və lazım olduğu təqdirdə təzyiqin tənzimlənməsi;
- Ön, yan, əyləc və duman işıqları, indikator lampaları və lazım olduğu təqdirdə onların dəyişdirilməsi;
- Əyləc və əyləc mayesi;
- Şüşə təmizləyən maye və lazım olduğu təqdirdə su çəninin doldurulması;
- Təhlükəsizlik kəmərlərinin istismara yararlı vəziyyətdə olması və lazım olduğu təqdirdə onların sazlanması.

**Bölmə 6:** Müştəri ilə maliyyə əməliyyatlarını dəqiq və ədalətli şəkildə həyata keçirmək.

*Öyrənmə nəticələri:*

| | |
|---|---|
| Nəticə 1 | Sərnişinin nağd əməliyyatlarını həyata keçirmək üçün yerinə yetirilməli olan "nağd pul dövriyyəsini" təsvir etmək; |
| Nəticə 2 | Müvafiq olduğu təqdirdə, sərnişin nəqliyyat vasitəsinə əyləşən zaman taksometrin necə işə salındığını göstərmək və səfər başa çatan zaman onu yenidən qurmaq; |
| Nəticə 3 | Sürücü üçün mövcud olan ödəniş sistemlərini sadalamaq; |
| Nəticə 4 | İctimai qaydalara uyğun olaraq gediş haqqının və ya taksometrin göstəricilərinin müştərilərə necə söylənilməli olduğunu göstərmək, nağd, yaxud post-terminal və ya, bank köçürməsi vasitəsilə ödənişin necə qəbul edilməli olduğunu, lazım olduğu təqdirdə çekin necə təqdim edildiyini nümayiş etdirmək; |
| Nəticə 5 | Müqavilənin tərkib hissəsi olan gediş haqlarının uçota alınması prosesini təsvir etmək və bunu etməyin əhəmiyyətini izah etmək; |
| Nəticə 6 | Nağd ödəniş edən müştərilərə qalıq pulların necə qaytarıldığını göstərmək; |
| Nəticə 7 | Növbənin sonunda nağd pullar ilə çeklərin necə üzləşdirildiyini və tələb olunan qeydlərin dəqiq şəkildə necə aparıldığını nümayiş etdirmək. |

*Yuxarıdakı sahələr üzrə təlim keçmiş şəxs aşağıdakı vəzifə və fəaliyyətləri yerinə yetirə bilər:*

**Əsas vəzifələrin (V) və vəzifələr daxilində fəaliyyətlərin (F) siyahısı**[1]

V.1. Gündəlik iş fəaliyyətini planlaşdırmaq və təşkil etmək:

- F.1.1. İş yükünü qiymətləndirmək və prioritetləşdirmək;
- F.1.2. Daimi müştərilərin sifarişlərini, sifariş məntəqələrinin təkliflərini, müxtəlif taksi dayanacaqlarının seçimlərini, potensial müştərilərin axınını, konfranslar, idman və tədbirləri, konsertlər kimi xüsusi tədbirlərin tələblərini nəzərə alaraq gündəlik marşrutu planlaşdırmaq;
- F.1.3. Daşınmanın təhlükəsizliyini təmin etmək üçün nəqliyyat vasitəsinin göstərici, işıq və əyləc sistemlərini yoxlamaq;
- F.1.4. Pulların dəyişdirilməsini və qəbzləri yoxlamaq;
- F.1.5. Özünün və nəqliyyat vasitəsinin təmiz və gigiyenik görünüşünü təmin etmək.

V.2. Təlimatlar almaq:

- F.2.1. Yoldakı vəziyyət və xüsusi tədbirlər barədə məlumat mübadiləsi aparmaq məqsədilə müvafiq kommunikasiya avadanlığı vasitəsilə dispetçer və operator xidməti ilə əlaqə saxlamaq və sərnişin xidməti ilə bağlı göstərişlər almaq;
- F.2.2. Qrafikə və marşruta uyğun olaraq müntəzəm müştərilərin və ya qrupların götürülməsini təmin etmək.

V.3. Xidmət göstərmək:

- F.3.1. Əvvəlcədən razılaşdırılmış yerlərdə, taksi dayanacaqlarında və yolda hərəkət edən zaman yol hərəkəti qaydalarını pozmadan müştəriləri götürmək;

[1]Müvafiq sahə üçün olan peşə standartındakı ilə eynidir.

F.3.2. Nəqliyyat vasitəsinə minən və düşən zaman sərnişinlərə yardım göstərmək və onların yükünə kömək etmək;
F.3.3. Müştəri avtomobilə minən zaman taksometri işə salmaq və təyinat məntəqəsinə çatan zaman onu söndürmək;
F.3.4. Yol hərəkəti və təhlükəsizlik texnikası qaydalarına əsasən təhlükəsiz, etibarlı, məsuliyyətli olmaq və yanacağa qənaətlcil yanaşmaq. Həmçinin, sürücülük qaydalarına uyğun olaraq nəqliyyat vasitəsini işə salmaq, idarə etmək, manevr etmək, yerləşdirmək və saxlamaq;
F.3.5. Nəqliyyat vasitələrinin idarə edilməsi prosesini tənzimləyən müvafiq təhlükəsizlik qaydalarına riayət etmək və müştəriləri təhlükəsizlik qaydalarına əməl etmələri üçün təlimatlandırmaq;
F.3.6. Xüsusi ehtiyacı olan müştəriləri daşımaq və onların təhlükəsizliyini təmin etmək üçün əlil arabaları üçün nəzərdə tutulmuş pandus və və s. bu kimi qurğu və avadanlıqlardan istifadə etmək;
F.3.7. Tələbə uyğun olaraq müştəriyə yerli ərazi və maraqlı, görməli yerlər barədə məlumat vermək və ya digər mədəniyyət obyektləri, həmçinin otel və restoranlar barədə ümumi məsləhətlər vermək;
F.3.8. Müştərinin rahatlığını təmin etmək üçün qızdırma, soyutma, işıqlandırma və havalandırma sistemlərinin işini tənzimləmək;
F.3.9. İctimai qaydalara uyğun olaraq ödənişin məbləğini müştəriyə açıqlamaq, gedilən məsafə və vaxtagörə,taksometrin göstəriciləri əsasında nağd pul, post-terminal, razılaşdırılmış müqavilə və ya bank köçürmələri (hesabdan-hesaba) vasitəsi ilə ödənişləri almaq;
F.3.10. Yol-hərəkəti qaydalarına və texniki tələblərə uyğun olaraq nəqliyyat vasitəsini dayandırmaq, söndürmək və saxlamaq.

V.4. Yol hərəkətini və küçələrin vəziyyətini monitorinq etmək:
F.4.1. Nəqliyyatın hərəkət axınını, şəraitini, yolların vəziyyətini və ya gecikmələrə, marşrutun dəyişdirilməsinə səbəb ola bilən digər amilləri nəzərə almaqla ən effektiv marşrut qrafikini seçmək və sərnişinlə razılaşdrmaq;
F.4.2. Nəqliyyat vasitəsinin təhlükəsiz istismarını, sərnişinlərin, avadanlıqların, yüklərin, mülkiyyətin təhlükəsizliyini təmin etmək üçün nəqliyyatın hərəkətini və yolları monitorinq etmək, buna uyğun hərəkət etmək.

V.5. Müştəri məmnunluğunu təmin etmək:
F.5.1. Müştərinin istəyinə uyğun olaraq şifahi ünsiyyət qurmaq;
F.5.2. Müvafiq qaydalara və texniki tələblərə uyğun olaraq xüsusi geyim normalarına və xarici görünüşə diqqət yetirməklə müsbət peşəkar və təşkilati imic formalaşdırmaq;
F.5.3. Nəqliyyat vasitəsinin təmizliyini və yüksək gigiyenik şəraiti təmin etmək;
F.5.4. Müxtəlif müştərilərin xüsusi ehtiyaclarını və gözləntilərini müəyyən etmək və qarşılamaq;
F.5.5. Gözlənilən və gözlənilməz problemləri, gecikmələri müəyyən etmək, monitorinq etmək və müştərini dərhal məlumatlandırmaq;
F.5.6. Etik davranış qaydalarına əməl etmək.

V.6. Fəaliyyəti monitorinq etmək:
F.6.1. Nəqliyyat vasitəsini istismardan əvvəl yoxlamaqla taksi fəaliyyətini təmin etmək;
F.6.2. Nəqliyyat vasitəsinin daxili hissəsini təmizləmək, xarici hissəsini yumaq və parıldatmaq;
F.6.3. İstismar zamanı nəqliyyat vasitəsinin fəaliyyətinə və effektivliyinə nəzarət etmək;
F.6.4. Texniki problem yarandığı halda müəssisənin mexanikini nəqliyyat vasitəsində yaranan problem barədə məlumatlandırmaq və ya nəqliyyat vasitəsini təmir emalatxanasına aparmaq.

V.7. Gündəlik fəaliyyət barədə qeydlər aparmaq və hesabat hazırlamaq:
- F.7.1. Yol vərəqəsində adı, tarixi və taksi-eyniləşdirmə nömrəsini, eləcə də sərnişinin götürülməsi, düşürülməsi və gediş haqqı kimi texniki məlumatları qeyd etmək;
- F.7.2. Müvafiq olduğu təqdirdə gözlənilməz hadisələr barədə hesabat hazırlamaq;
- F.7.3. Texniki prosedurlara uyğun olaraq qusurlar və ya nasazlıqlar barədə aidiyyəti şəxslərə məlumat vermək;
- F.7.4. Nəqliyyat vasitəsi ilə bağlı tapşırıq almaq üçün taksi xidməti və ya qaraj ilə mütəmadi əlaqə saxlamaq.

# C.3. TƏLİM İLƏ BAĞLI XÜSUSİ MƏLUMAT

## C.3.1. TƏLİMİN NÖVLƏRİ

Bu peşə üçün zəruri səriştələr aşağıda göstərilən təlim metodları vasitəsilə əldə edilə bilər:

**Formal təlim**

| Tövsiyə olunan formal təlim | Uyğun gələn təlim növü | Qeydlər |
|---|---|---|
| Tam orta təhsil[2] | | |
| Texniki peşə təhsili və ya akkreditasiyadan keçmiş təlim müəssisəsində təlim | ☑ | İlkin təlim akkreditasiyadan keçmiş peşə məktəbləri və sertifikatlaşdırılmış müəssisələr tərəfindən təşkil olunur. Bu təlim praktikadan qazanılan geniş təcrübə ilə əlaqələndirilməlidir.<br><br>Yalnız praktiki təlim keçirildiyi hallarda səriştələrin tanınması haqqında sənəd əldə etmək üçün işçinin əlavə nəzəri təlim keçməsi və qiymətləndirilməsinə ehtiyac var. |
| Orta ixtisas təhsili | | |
| Ali təhsil | | |
| Digər: | | |

Qeyri-formal və (və ya) informal təlim tələb olunan səriştələrin genişləndirilməsinə şərait yarada bilər.

### Qeyri-formal təlim

İş yerində, təlim mərkəzində və ya bilavasitə ixtisaslaşmış təlimatçı tərəfindən keçirilən təlimdir. Qeyri-formal təlimin ən yaxşı yolu iş yerində təlimatçı yanında öyrənməkdir.

---

[2]Ümumi orta təhsil ölkə vətəndaşları üçün icbari xarakter daşıdığından cədvəldə əks olunmayıb.

### İnformal təlim

İnformal təlim kütləvi informasiya vasitələri və sosial şəbəkələr vasitəsi ilə baş verir. O, tələb olunan nəzəri və təcrübi bilikləri verə bilər, lakin fərdi yoxlamadan başqa, digər qaydada müşahidə edilməsi demək olar ki, mümkün deyil və ölçülməsi çətindir.

## C.3.2. TƏLİMİN İSTİQAMƏTİ

Normal ilkin təlim istiqaməti ümumi orta təhsili bitirdikdən sonra ilkin peşə təhsili almaq və praktiki təcrübə keçməkdir.